# ABŞERON YARMADASI TORPAQLARININ AQROEKOLOJİ SƏCİYYƏSİ

**Əliyev M.Ə., Həsənzadə O.E.**

*Bakı Dövlət Universiteti*

*murad.eliyev.976@gmail.com*

Respublikamızda əvəzedilməz sərvət olan torpağın mühafizə edilməsi, ondan mənfi keyfiyyət dəyişiklikləri yaradan səbəbləri vaxtında aşkar edib qarşısının alınması kimi təxirəsalınmaz məsələlərin həllini tələb edir. Bu istiqamətdə işlərin aparılmasında kənd təsərrüfatına yararlı torpaqların öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Professor S.Z.Məmmədovaya görə kənd təsərrüfatının intensivləşdirilmə-sinin vacib şərtlərindən biri torpaq örtüyünün aqrokimyəvi xüsusiyyətlərinin, su-fiziki xassələrinin öyrənilməsi və mineral gübrələrin tətbiq üsullarının, verilmə vaxtının, normasının müəyyən edilməsidir.

Müasir dövrdə ətraf mühitin, o cümlədən, torpaqların çirklənməsində təhlükə yaradan proseslərdən biri ağır metalların biosferdə, atmosferdə və hidrosferdə həddindən artıq toplanmasıdır. Bunun əsas səbəbi istehsal obyektlərinin və əhalinin eyni yerdə mərkəzləşməsidir. Bu baxımdan Abşeron yarmadasında yayılmış torpaqların öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu ərazidə yayılmış boz-qonur torpaqlar, qumlar, şoranlar, texnogen pozulmuş və neftlə çirklənmiş torpaqlar müxtəlif illərdə bir çox tədqiqatçılar tərəfindən öyrənilmişdir. Müasir dövrdə dünya üzrə kənd təsərrüfatı məhsullarının 50%-dən çoxu gübrələrin tətbiqi ilə əldə olunur ki, bu da öz növbəsində torpaqlarda müəyyən ekoloji problemlər yaradır.

Abşeron yarımadası ərazisində əkinaltı torpaqlar tərəfimizdən öyrənilmişdir. Ərazi arid torpaqəmələgəlmə şəraitinə və yarımsəhra landşaft xüsusiyyətlərinə malikdir. Ərazi dəniz səviyyəsindən 26 metrdən 300-400 metr yüksəklikdə yerləşir. Yarmada Böyük Qafqaz sıra dağlarının cənub-şərq ətəklərini əhatə edir. Yarmadının ümumi sahəsi 205 min hektar olub, relyef xüsusiyyətlərinə görə 2 hissəyə ayrılır: qərbi -alçaq dağlıq və dağətəyi, şərq-düzənlik hissəsi. Torpaqəmələ gətirən süxurlar üçüncü dövrün gilli duzlu-gipsli çöküntülərdən və palçıq vulkanının aşınma məhsulundan təşkil olunmuşdur. Bu torpaqları səciyyələndirən əsas cəhət onların təbii münbitliyinin aşağı səviyyədə olması, profilin üst qatında asan həll olan duzların yuyulması və profil üzrə gips yığıntılarının, eyni zamanda profil boyu karbonatlılığın olmasıdır.

Abşeron yarmadasının iqlimi mülayim-isti subtropik yarım-səhra və quru çöl iqlim tipinə aiddir. Və əsas səciyyəvi cəhəti yağıntının azlığı, buxarlanmanın yüksək olmasıdır. Orta illik temperatur müsbət 13,1$^0$C-14,6$^0$C arasında dəyişir. Orta illik yağıntıların miqdarı 150-200 mm arasındadır. Bitki örtüyü quru bozqır və yarımsəhra xarakterli olub, efimerlərdən, yovşan, dəvətikanı və digər quraqlığa davamlı bitkilərdən ibarətdir. Abşeron

yarımadası qədim əkinçilik mədəniyyətinin yarandığı ərazilərdən sayılır. Burada qədim zamanlardan zeytun, zəfəran, püstə, badam, üzüm, əncir və digər kənd təsərrafatı bitkiləri əkilib becərilmişdir. Təcrübə sahəsində qida maddələrinin miqdarını müəyyən etmək üçün təcrübə qoyulmazdan əvvəl torpağın potensial ehtiyat qida maddələri, ümumi humus, azot, fosfor, kalium və effektiv münbitliyi-bitki tərəfindən asan mənimsənilən qida elementləri müəyyən edilməlidir. Ərazinin müasir vəziyyətini qiymətləndirmək məqsədilə həmin torpaqların aqrokimyəvi göstəriciləri öyrənilmişdir.

Torpaq nümunələrinin təhlili göstərir ki,ərazidə yayılmış boz-qonur torpaqlar azotun, fosforun və kaliumun mənimsənilən formaları ilə zəif dərəcədə təmin olunmuşdur. Humusun miqdarına görə bu torpaqlar respublikada qəbul edilmiş qradasiyaya görə az humusludur.